# İstiqlal mücəvhəri - Hacı Kərim Sanılı



Sevindik NƏSİBOĞLU

2018-ci il. Həmişəki kimi, mən o vaxt 100, indi isə 102 illiyi tamam olan Cümhuriyyətimiz barədə məlumatlarla maraqlanırdım. Xüsusilə də, Cümhuriyyət Parlamenti barədə məlumatlar toplayırdım. Bu məlumatlar əsasında şeirlər, hekayələr, məqalələr yazırdım və indi də yazıram. Araşdırmalarım vaxtı təsadüfən Sosialistlər fraksiyası barədə məlumatlar da diqqətimi özünə çəkdi. Onda bildim ki, sən demə, Azərbaycan Xalq Cümhuriyyətində sosialistlər fraksiyası da var imiş. Lakin, bu sosialistlər fraksiyasında bir neçə şəxs, həm də cümhuriyyətçi olublar. Onlardan İbrahim Əbilovu, Əkbər ağa Şeyxülislamovu və başqalarını misal göstərmək olar. Bu dahi diplomatlar arasında bir şair də var imiş - HACI KƏRİM SANILI!

Hacı Kərim Sanılı haqqında ilk dəfə o vaxt məlumatlar əldə etdim. Həmin məlumatlar əsasında "Sanılının poeması" adlı şeir yazdım, şeir belə alınmışdı;

Uca dağa, yamaclara,
Təbiətə vurğun idi.
İctimai xadim idi,
İşləyirdi, yorğun idi.
Düz 12 nəfər ilə,
Gəldi o bir parlamentə.
Sanılı sevdi yurdunu,
92 nəfər ilə,
Qoridə təhsil almışdı,
Ölkəsinə qayıtmışdı.
Gəncə, Poylu, Kəsəmənin,
Məktəbində çalışmışdı.
O illərdə ölkəmizdə,
Müstəqillik ruhu vardı.
Təşkilat kimi tanınan,
"Difai"lə "Hümmət" vardı.
Üzvü oldu o, "Hümmət"in,
Sonra da "Sosialistlər"in.
AXC yaranan anda
Üzvüydü o, parlamentin.
Dövlət dağılandan sonra,
Çalışdı insitutlarda.
O, o qədər çalışdı ki,
Ağardı öz saçları da.
Şeirlər də o, yazırdı,
Yaratmaqdan zövq alırdı.
"Aran köçü", "Uca dağlar"
Onun yaratdıqlarıydı.
Hər gün, hər vaxt olsam da mən
Poemalar yaradası,
Həvəs, ilhamım olacaq,
Sanılının poeması.

12.07.2018

Bu şeiri yazdıqdan bir neçə ay sonra Allahın qisməti ilə bir sürprizlə qarşılaşdım. Sanılı haqqında daha çox məlumat toplamaq arzusundaykən təsadüfən onun nəslindən olan Ülkər Sanılı ilə tanış oldum. Sosial media vasitəsilə Ülkər xanımla yazışdım və Hacı Kərim Sanılı haqqında daha kimlər vasitəsilə məlumatlar toplaya biləcəyim barədə məlumatlar aldım. Hacı Kərim Sanılı barədə tam məlumat almaq istəyərkən bütün Sanılılar barədə məlumat əldə etdim.

Sanılılar əslən şanlılar yetişdirən Qazax rayonunun Çaylı kəndindəndirlər. Sanılılar bəy nəslindən olmuşlar. Hacı Kərim Sanılının atası Kərbəlayi Hüseynin Kiçik Qafqazın ətəklərində, Pir dağının güneyində, habelə Kürün sağ sahilində, Ceyrançöldə qoyun-quzu yataqları olub. Lakin, bəzi mənbələrdə Sanılıların çoban nəslindən olduğu yazılır. Çoban olsalar da, bəy olsalar da heç vaxt mənəm-mənəmlik etməyiblər. Yaxşılıqlarını təmənnasız ediblər. Bununla da, ən yaxşı ailə, nəsil olduqlarını əməldə sübut ediblər.

Sanılı haqqında lap çox məlumatı olan Sayalı nənədir.

Sanılılar soyundan qalan son nümayəndələrdən birinin dediyi və "publika-.az" saytının yazdığı məlumata istinad edərək qeyd edim ki, Sanılı uşaq vaxtlarında mollaxanada oxuyur, arada el şənliklərində də iştirak edərdi. Bunun sübutu da belədir:

Alaçıqda çal-çağır zamanı iki nəfər aşıq gəlib şənliyə qoşulur. Üç-dörd mahnı oxuyandan sonra onlardan biri üzünü şənlik iştirakçılarına tutub deyir:

- Mən sizə bağlama deyəcəm. Kim onu tapsa, həmin adama bir "beşlik" qızıl verəcəm. Əgər tapmasanız, mən sizin hər birinizdən bir manat alacağam.

Aşıq sazı sinəsinə basıb, elə yenicə sözünə başlamaq istəyirdi ki, birdən ayağı sürüşüb yıxılır. Məclis iştirakçıları hamılıqca aşığın vəziyyətinə gülür. Bundan özünü itirməyən aşıq üzünü camaata tutub:

Əmim oğlu Mürşüddü,
Yadıma bir şey düşdü.
Soruşuram nə zaman
Bu daş bura düşübdü?

- deyə ortadakı sal daşa işarə edir.

Hacı Kərim qabağa keçib aşığa belə cavab verir:

Ayağın bərk sürüşdü,
Hamı birdən gülüşdü.
Dünya binə olandan
Bu daş bura düşübdü.

Cavab aşığın çox xoşuna gəlir. Hacı Kərimi yanına çağırıb ona bir qızıl "beşlik" verir. Uşaqdakı qabiliyyətə heyran qalan aşıq "Bundan yaxşı sənətkar olar" deyib, 13-14 yaşlı Hacı Kərimi özünə şagird götürmək istəyir. Amma dayısı Abdurrəhman ağa razı olmur və aşığa "onu oxutduracam, çox götürümlü uşaqdı..." cavabını verir.

...Hacı Kərim Sanılı öz kəndlərində məktəb açmaq istəyirdi. Çünki, artıq dövlətdə baş qaldıran cahillik Çaylı kəndində daha çox hiss olunurdu. O, seminariya qura bilmir. Amma Firidun bəy Köçərlinin sayəsində Qazax Müəllimlər Seminariyası açılır və o, burada həm oxuyur, həm də öyrədir.

Hacı Kərim 1902-1904-cü illərdə Gəncə şəhər rus-müsəlman məktəbində müəllim işləyir. Daha sonra 1904-cü ildə Çaylıya qayıdır. Olduqca ağır maddi ehtiyac içində yaşayan şair, nəhayət, 1905-ci ildə Poylu kənd məktəbinə müəllim təyin edilir. Bir ildən sonra Dağ Kəsəmən 4 illik məktəbində müdir vəzifəsini icra edir. Orada işləyərkən Çaylı kəndindən 17 nəfəri məktəbə qəbul edir.

Sanılı Dağ Kəsəmən məktəbində müdir olduğu zaman həmin məktəbdə işləyən Qayıbov soyadlı birisi onun inqilabi işlə məşğul olmadığı barədə Qafqaz canişinliyinə məlumat verir. Beləliklə, onun evində axtarış aparılsa da lakin dövlət əleyhinə heç bir sənəd tapmırlar. Eyni zamanda məktəb də təpədən-dırnağa yoxlanılır və oradan da heç nə tapılmasa da heç bir əsas gətirmədən Sanılınıhəbs edirlər. Sanılı Tiflisdə 6 ay həbsdə saxlanılması üçün əsas olmadığından onu həbsdən azad etmək məcburiyyətində qalırlar. Həbsdən azad olunan Sanılı yenidən əvvəlki iş yerinə qayıdır.

Hacı Kərim Sanılı savadlı nəslin formalaşması üçün çox işlər görmüşdür. Belə ki, 1905-ci ildə Qazax qəzasının ayrı-ayrı kəndlərində yeddi məktəb binasının tikilməsi haqqında tərtib olunmuş layihəni çara təsdiq etdirən, həmin binaların tikintisinə lazımi qədər maliyyə vəsaiti buraxılmasına qol çəkdirən, icazə alan məhz Hacı Kərim Sa-



Hacı Kərim Sanılı

nılı olmuşdur. Layihəyə əsasən, həmin binalardan birinin Çaylı kəndində tikilməsi nəzərdə tutulmuşdu. Lakin yerli adamlardan heç kim qıyıb öz torpağını məktəb binası tikilməsi üçün vermir. Bunu eşidən Sanılının əmisi oğlu Məhəmməd Hacı Kərimə deyir: "Sənin xətrinə mən öz torpağımdan 1,5 hektar yer ayırıram, gəl, məktəbi tikdir". Həmin yerdə Sanılı məktəb tikdirir və bu tikili 1924-cü ildən 1989-cu ilədək Çaylı kənd 1 saylı orta məktəbi kimi fəaliyyət göstərmişdir.

Hacı Kərim Sanılı maarifçiliklə yanaşı, ictimai-siyasi işlərdə də fəallıq göstərmişdir. O, 1905-ci ildə siyasi fəaliyyətə başlamış və həmin ildə "Difai" təşkilatına üzv olmuşdur. Dağ Kəsəmən məktəbində işlədiyi vaxtlarda Sanılı ictimai-siyasi fəaliyyətini daha da gücləndirərək kəndlilərin hüququnu müdafiəyə etmiş, yeniliyə və tərəqqiyə çağıran müxtəlif çıxışlarda iştirak etmişdir. Bütün bunlar yerli xəfiyyə idarəsinin gözündən yayınmamış və Sanılı 1906-cı ildə həbs edilmişdir. Bu, dövrün ziyalılarının kəskin etirazına səbəb olmuş, onlar Sanılını müdafiəyə qalxmışlar. Bu barədə Firidun bəy Köçərli "İrşad" qəzetində "El üçün ağlayan gözdən olar" məqaləsi ilə çıxış edərək yazmışdır:

"Paxıl, həsəd və iftira səbəbilə nahaqdan məhbus olanlar həm Qazax mahalında cənab Ağabəy Qiyasbəyov və müəllim H.K.Sanıyevdir... Bunları güdaza verən ancaq içimizdən törəyən xaricməslək mürtədlər olubdur ki, divanbəyinin və uyezd naçalnikinin ətrafında quyruqlarını bulayıb dəyanət və rəzalətləri üzündən millət xadimlərini bad-fənaya verməyi özlərinə böyük hünər və qərəz bilirlər".

Həbsdən azad olunduqdan sonra da Sanılı inqilabi fəaliyyətini dayandırmamış, "Müdafiə" təşkilatına üzv olub, həmin partiyanın təşkilatçılarından birinə çevrilmişdir. O, partiyanın müraciətnaməsinin çap olunmasında, kütlələr arasında yayılması üçün çalışmışdır. Bundan qorxuya düşən hakim dairələr dəfələrlə onu Qazaxdan uzaqlaşdırmağa çalışmışdır. Ölkəsini müstəmləkəçilik buxovundan qurtarmaq, millətini savadlı və elmli etmək üçün mübarizə aparan Sanılı ona olunan bu təklifi qəbul etməmişdir. Hacı Kərim Sanılı 1907-ci il fevralın 9-da yerli əhali tərəfindən seçilən nümayəndə kimi Bakıya gəlmiş, "Xeyriyyə cəmiyyəti"ndə olmuş və yoxsullara, imkansızlara maddi yardım göstərilməsi üçün əlindən gələni əsirgəməmişdir. Onu ictimai-siyasi hadisələrdən kənarlaşdırmaq üçün 1910-cu ilin iyun ayında Qafqaz Təhsil Dairəsi direktorunun göndərişi ilə Sankt-Peterburq Müəllimlər İnstitutunun nəzdində açılmış əl-əməyi kursuna ezam edirlər. Orada olduğu illərdə Hacı Kərim rus inqilabçıları Belinski və Çernışevski ilə yaxından tanış olur. Bu tanışlıq və Peterburq həyatı Sanılının sonralar ictimai-siyasi cəhətdən formalaşmasında, vətənpərvərlik ruhunun yüksəlməsində mühüm rol oynayır. Kursu başa vurduqdan sonra Qazağa qayıdan Sanılı nə qədər cəhd göstərsə də onu müəllim işləməyə qoymurlar.

Sanılı 1913-cü ildə pedaqoji sahədəki xidmətlərinə görə III dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif olunsa da, o, ordenə görə tələb olunan üç manat vermir və ordeni almır. Belə ki o, pedaqoji cəmiyyət arasında hörmət və nüfuzuna görə pul verib özünə pul ilə orden almağı şəxsiyyətinə sığışdırmır. Lakin çar manifestindən sonra həmin ordeni pulsuz olaraq ala bilir.

Hacı Kərimin ictimai-siyasi hadisələrdəki fəallığı bəzi dairələrdə qısqanclıqla qarşılanır.

Çətinliklə də olsa, 1915-ci ildə Qazax seminariyasında müvəqqəti olaraq, qrafika incəsənəti müəlliminin köməkçisi təyin olunur.

1917-ci ildə çarizmin devrilməsi ilə əlaqədar ictimai-siyasi hadisələrin təsiri Qazaxda da hiss olunurdu. Sanılı 1917-ci ildə Tiflis hümmətçilərinə qoşularaq Tiflis menşevik "Hümmət" təşkilatının fəal üzvlərindən biri olmuşdur. O, kəndliləri mübarizəyə çağırır, yığıncaq və mitinqlərdə iştirak edir, nitqlər söyləyirdi. 1918-ci ildə Qazaxdakı kəndli üsyanları tədricən ciddi, mütəşəkkil inqilabi hərəkata çevrilirdi. Bu zaman Qazax qəzasının idarə edilməsi Hacı Kərim Sanılıya tapşırılmış və o, 1918-ci ildə Qazax qəzasının general-qubernatoru olmuşdur.

1918-ci ilin noyabrında Tiflis menşevik hümmətçiləri öz nümayəndələrinin Bakıya Müsavat partiyasının parlamentinə yola salırlar. Həmin nümayəndələr içərisində S.Ağamalıoğlu, Ə.Qarayev, Ə.Pepinov kimi peşəkar inqilabçılarla yanaşı, Sanılı da var idi. Hacı Kərim 1918-ci ilin noyabrında Tiflis "Hümmət" partiyasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə seçilmişdir.

O, sosialistlər fraksiyasının, sorğu komissiyasının üzvü olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Sanılı iki il Qazax qəzasının xalq hakimi vəzifəsində çalışmışdır. O, həmçinin Qazax seminariyasına maliyyə vəsaiti ayrılmasından ötrü parlamentin iclaslarında məsələ qaldırmış və buna nail olmuşdur.

*(Davamı var)*